## SOKRAT ABASƏLİ oğlu İSAYEV – 70



Bakı Dövlət Universitetinin Paleobiogeokimya ETL-in elmi rəhbəri, «Hidrogeologiya və mühəndis geologiyası» kafedrasının professoru, geologiya-mineralogiya elmləri doktoru Sokrat Abasəli oğlu İsayevin doğum gününün 70 illik ildönümü tamam olur. Paleobiogeokimyəvi və ekoloji geokimyəvi tədqiqatlar sahəsində Azərbaycanın görkəmli alimlərindən biri olan professor S.A.İsayev 23 sentyabr 1937-ci ildə Salyan rayonunun Kürqaraqaşlı kəndində anadan olmuşdur.

S.A.İsayev ilk təhsilini Salyan və Xilli məktəblərində almış və 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinin geologiya bölməsini fərqlənmə diplomu ilə bitirmişdir.

Ali təhsil aldıqdan sonra komsomol putyovkası ilə 3 il Qazaxıstan SSR-də baş texnik geoloq, geoloq, dəstə rəisi vəzifələrində işləmiş, yeni qızıl təzahürlərini aşkar etdiyi, geoloji planaalma işlərini yüksək səviyyədə yerinə yetirdiyi üçün dəfələrlə mükafatlandırılmış, fəxri fərmanlar almışdır.

S.A.İsayev 1964-1967-ci illərdə öz təhsilini BDU-nun aspiranturasında davam etdirmiş və 1968-ci ildə «Abşeron yarımadasının müasir və Abşeron yaşlı monadakna və dreysensidlərinin biogeokimyəvi tədqiqi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Prof. S.A.İsayev Paleobiogeokimya problem laboratoriyasının yaradılmasında, Paleobiogeokimya və Paleoekologiya üzrə I Ümumittifaq müşavirəsinin təşkilində və keçirilməsində, Ümumittifaq Təşkilatlararası Paleobiogeokimya Komissiyasının yaradılmasında, «Paleobiogeokimya məsələləri» və «Orqanizm və mühit qarşılıqlı əlaqələri» adları altında ittifaq miqyaslı və dövri nəşrli toplularının əsaslandırılmasında və nəşr işlərində böyük rolu olmuşdur.

Paleobiogeokimyəvi tədqiqatlar üzrə ilk monoqrafiya 1971-ci ildə işıq üzü gördü (Q.M.Sultanov, S.A.İsayev), həmin ildə S.A.İsayevə SSRİ Ali Attestasiya Komitəsinin qərarı ilə baş elmi işçi elmi adı verildi. Xarici ölkə alimləri ilə də elmi əlaqələr, sıx elmi informasiya mübadiləsi yarandı.

Artıq keçmiş SSRİ-nin bir çox elmi qurumlarında paleobiogeokimya laboratoriyaları, qrupları meydana çıxmışdı və Bakı Paleobiogeokimya məktəbi Azərbaycan EA müxbir üzvü, prof. Q.M.Sultanovun rəhbərliyi ilə ittifaq miqyasında aparıcı elmi müəssisəyə çevrilmişdi.

1988-ci ildə S.A.İsayev keçmiş ittifaqda, birinci olaraq paleobiogeokimya elmi istiqaməti üzrə doktorluq dissertasiyası müdafiə etdi.

Əsasən prof. S.A.İsayevin səmərəli fəaliyyəti nəticəsində paleobiogeokimyanın, bir elm kimi, gerçəklik haqqında obyektiv biliklərin üzə çıxarılması və nəzəri surətdə sistemləşdirilməsi kimi vəzifələri, onun fəaliyyəti ilə yeni biliklərin əldə edilməsi, onunla əldə edilən qanunauyğunluqlar əsasında proses və hadisələrin təsviri, izahı və qabaqcadan deyilməsi müəyyənləşmişdi. Hesab etmək olar ki, paleobiogeokimya adlı yeni elmi istiqamətin yaradıcılarından biri olan S.A.İsayevin elmi uğurları bu elmi istiqamətin elmə çevrilməsində həlledici rol oynamışdır. O, öz tədqiqatları ilə sübut etmişdir ki, təkamül prosesinə səbəb olan və təbii seçmə yolu ilə möhkəmləndirilən genetik mutasiyalar təkcə orqanizmin xarici morfologiyasında deyil, başqa səviyyələrdə də – toxumaların mikro- və ultrastrukturundan tutmuş skeletin molekulyar və elementar kimyəvi tərkibinə qədər ifadə olunur. Hər bir taksonomik səviyyəyə uzunmüddətli evolyusiya prosesində təşəkkül tapmış spesifik kimyəvi tərkib və müəyyən metabolik proseslər toplusu səciyyəvidir. Sübut edilmişdir ki, Xəzər kardiidlərinin qabığında bir sıra elementlərin miqdar səviyyələri genetik xarakter daşıyır. Bu, orqanizmin özünəməxsus ekoloji-fizioloji ixtisaslaşmalarının qazanılması sayəsində ardıcıl olaraq filogenezdə möhkəmlənmişdir.

Professor S.A.İsayevə görə ekoloji-geokimyəvi vəziyyətin dəyişmələri gedişində mollüsk qabıqlarının kimyəvi tərkibinin dəyişməsi növün genetik potensiyalarının qarşılıqlı əlaqələri və xarici mühitin dəyişən şəraitlərində onların reallaşma imkanları ilə müəyyən edilir. Müasir və qədim mollüskların qabığının element, biokimyəvi tərkib və mikrostrukturu haqqında məlumatlar növ və cins spesifikliyində, filogenetik əlaqələrdə, qədim su mühitinin mühüm parametrlərinin bərpasında, qapalı kontinental hövzələrin inkişaf tarixinin öyrənilməsində istifadə edilmişdir. Paleobiogeokimyəvi nəticələr orqanizm assosiasiyalarının, litofasial məlumatların təhlili ilə möhkəmləndirilmişdir. Müqayisəli-biogeokimyəvi tədqiqatların çatışmamazlıqlarını aradan qaldırmaq üçün elmi-praktiki tövsiyələr verilmişdir. Biogen karbonatın tərkib və strukturunun mühitin fiziki və kimyəvi parametrləri ilə bir sıra əlaqələri araşdırılmış, müasir və qədim orqanizmlərin taksonomik spesifikliyinin filogenetik aspektdə kimyəvi ifadəsi verilmişdir.

Hazırda həmin işlərin məntiqi davamı olaraq, laboratoriyanın tematik planında ekoloji-geokimyəvi tədqiqatlar praktiki bir məsələ kimi ortaya çıxmışdır. Prof. S.A.İsayevin bu sahədə elmi işləri Abşeron yarımadasında və onun sahil zonalarında ekoloji-geokimyəvi vəziyyət, texnogenez, sedimentogenez və ilkin diagenezin qarşılıqlı əlaqələrinin öyrənilməsinə həsr olunmuşdur. Tədqiqatlar əsasında təbii-texnogen geokimyəvi zonalar ayrılmışdır ki, onların əksəriyyətində ağır metalların anomal konsentrasiyaları mövcuddur. Sahil dayazlığında geoekoloji analizin ən mühüm aspektlərindən biri təbii-texnogen anomaliyaların ətraf mühitin göstəricisi kimi qiymətləndirilməsidir.

Professor S.A.İsayev 7 monoqrafiyanın, 3 dərsliyin, çoxlu tədris proqramları, elmi məqalə və hesabatların müəllifidir.

Professor S.A.İsayevin elmi-pedaqoji kadrların hazırlanmasında rolu böyükdür; onun rəhbərlik etdiyi laboratoriyada 12 namizədlik və 2 doktorluq işi hazırlanıb müdafiə edilmişdir. Alimin Kanada, ABŞ, Almaniya, Fransa, Çexoslovakiya, Bolqarıstan, Polşa alimləri ilə sıx əlaqələri olmuşdur. Paleobiogeokimyəvi, paleoekoloji və paleocoğrafi tədqi-

qatlar sahəsində geniş tanınmış bu alim, həm də yüksək ixtisaslı müəllimdir. O, hal-hazırda «Hidrogeologiya və mühəndisi geologiya» kafedrasında «Ekologiyanın əsasları», «Tətbiqi ekologiya», «Geoekologiya», «Hidrogeoekologiya», «Azərbaycanın hidrogeoekoloji problemləri» fənlərindən yüksək metodiki və elmi səviyyədə mühazirələr oxuyur, geokimyəvi ekologiya, biogeokimya sahəsində elmi işlərini davam etdirir.

Professor S.A.İsayev elmi-metodik ekspertizada fəaliyyət göstərir. O, 10 ildən artıqdır ki, Respublika Təhsil Nazirliyinin EMŞ «Geologiya-geofizika» bölməsinin məsul katibi, AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer haqqında elmlər üzrə Ekspert şurasının üzvüdür.

Professor S.A.İsayev BDU-da işlədiyi müddətdə elmi-tədqiqat və pedaqoji fəaliyyətində özünü yüksək ixtisaslı və bacarıqlı mütəxəssis kimi göstərmişdir. Elmi təşkilatçılığı, ictimai fəaliyyəti və əxlaqi keyfiyyətlərinə görə o, universitet kollektivinin hörmətini qazanmışdır.

***Redaksiya heyəti***